**Əməkdaşlıq haqqında müqavilə**

Bir tərəfdən Azərbaycan Respublikasının qanunvericiliyi və öz Nizamnaməsi əsasında fəaliyyət göstərən, bundan sonra "UNEC" olaraq adlandırılacaq Azərbaycan Dövlət İqtisad Universitetinin rektoru professor Muradov Ədalət Cəlal oğlunun şəxsində və öz Nizamnaməsi əsasında fəaliyyət göstərən, bundan sonra "DP MTU" olaraq adlandırılacaq "Dniprovska Politexnik" Milli Texniki Universitetinin rektoru Azyukovski Aleksandr Aleksandrovichin şəxsində bundan sonra "Tərəflər" olaraq adlandırılacaqlar, aşağıdakılar barədə hazırkı Müqaviləni bağlamışdılar:

**1. Müqavilənin predmeti**

Müqavilənin predmeti elm və təhsil sahəsində əməkdaşlıq, ali və ali təhsildən sonrakı ixtisasartırma təhsilinin səmərəli fəaliyyətinə kömək, ali təhsilli yüksək ixtisaslı mütəxəssislərin və yüksək ixtisaslı elmi kadrların hazırlığı, işçilərin fasiləsiz ixtisas artımı, peşə elm və təhsilinin inteqrasiyasıdır.

**2. Əməkdaşlığın əsas istiqamətləri**

2.1.Tərəflərin əməkdaşlığının əsas istiqamətləri aşağıdakılardır:

2.1.1.Dərs materiallarının, tədris-metodiki vəsaitlərin işlənib hazırlanması və mübadiləsi, Web of Science və Scopus elmi platformalarına daxil olan ən nüfuzlu nəşrlərdə çap olunması nəzərdə tutulmaqla, birgə elmi əsərlərin (monoqrafiyaların, elmi-metodiki buraxılışların, məqalələrin və s.) hazırlanması.

2.1.2.Elmi işlərin və metodiki materialların resenziyalaşdırılması.

2.1.3. Tərəflərin metodiki araşdırmaları, tədris proqramları, nəşrləri haqqında informasiyanın yayılmasına dəstək.

2.1.4.Müəllimlik fəaliyyətinin həyata keçirilməsi, mühazirələrin oxunması, "master-klass"ların təşkili, qarşılıqlı maraq kəsb edən istiqamətlər üzrə tədqiqat işlərinin keçirilməsi məqsədilə elm və təhsil proqramları çərçivəsində mütəxəssislərin akademik mübadiləsi.

**Угода про співпрацю**

Національний технічний університет «Дніпровська політехніка» (далі – НТУ ДП), в особі ректора професора Азюковського Олександра Олександровича, діючого на підставі Статуту, і, з другого боку, Азербайджанський державний економічний університет, (далі – UNEC) в особі ректора професора Мурадова Адалята Джалал огли, діючого на підставі Статуту, далі – Сторони, уклали між собою Угоду про наступне:

**1. Предмет Угоди**

Предметом Угоди є співробітництво у сфері освіти і науки, сприяння ефективному функціонуванню систем вищої та післядипломної професійної освіти, підготовка висококваліфікованих спеціалістів з вищою освітою та наукових кадрів вищої кваліфікації, безперервне підвищення кваліфікації працівників, інтеграція професійної освіти і науки.

**2. Основні напрями співробітництва**

2.1. Основними напрямами співробітництва Сторін є:

2.11. Розробка та обмін навчальною літературою, навчально-методичними посібниками, підготовка спільних наукових праць (монографій, статей тощо) для публікації у найбільш авторитетних виданнях, що входять в наукові платформи Web of Science та Scopus.

2.1.2. Рецензування наукових робіт і методичних матеріалів.

2.1.3. Сприяння в розповсюдженні інформації про методичні розробки, навчальні програми, публікації Сторін.

2.1.4. Академічний обмін спеціалістами в межах освітніх і наукових програм з метою здійснення викладацької діяльності, читання лекцій, проведення майстер-класів, дослідницької роботи за напрямами, що відповідають взаємним інтересам.

2.1.5.Nəzəri və təcrübi biliklərin dərinləşdirilmsi üçün zəruri şərtlərin yaradılması.

2.1.6. Müasir tədris texnologiyalarının istifadəsi ilə məşğələlərin keçirilməsinin təşkili və metodikası üzrə təcrübə mübadiləsi.

2.1.7.Qarşılıqlı maraq əsasında birgə elmi və təhsil proqramlarının, layihələrinin həyata keçirilməsi. Birgə elmi-tədris və mədəni proqramların və layihələrin işlənib hazırlanması və həyata keçirilməsi (könüllülüyün sosial praktikası, mentor fəaliyyəti, olimpiadalar, intellektual oyunlar və s.).

2.1.8.Tərəflərin fəaliyyətinin aktual istiqamətləri üzrə, o cümlədən təhsil sistemində ən mühüm problemlərin elmi həllini təmin edilməsinə yönəlmiş istiqamətlər üzrə birgə elmi tədqiqatların və digər işlərin aparılması.

2.1.9.Tələbə, magistrant və aspirantların fundamental və tətbiqi elmi tədqiqatların prioritet istiqamətləri üzrə elmi-tədqiqat işlərinə cəlb edilməsi. Tərəflərin doktorant/ aspirantları tərəfindən dissertasiya işlərinin mövzusu üzrə birgə tədqiqatların aparılması.

2.1.10.Müəllimlərin və əməkdaşların ixtisas artımı proqramlarının işlənib hazırlanması və həyata keçirilməsi.

2.1.11. Tərəflərin, razılığı əsasında, "qonaq" professorları tərəfindən tədris kurslarının keçirilməsinin təşkili.

2.1.12. Fasiləsiz təlim üzrə təhsil kompleksinin fəaliyyyəti üçün şərtlərin təmin edilməsi.

2.1.13.Mütəxəssislərin hazırlanması, təkmilləşdirilməsi və ixtisaslarının artırılması üzrə birgə layihələrin, kursların, seminarların həyata keçirilməsi.

2.1.14.Birgə elmi-praktiki və elmi-metodiki simpoziumların, konfransların, dəirmi masaların (o cümlədən tələbələr üçün) və digər tədbirlərin təşkili və keçirilməsi.

2.1.15 Təhsil alanların akademik mobilliyinin reallaşdırılması, Tərəflərin tələbələrinin paritet şərtlər ilə təhsil istiqamətləri üzrə modul (semestr) tədrisinin həyata keçirilməsi.

2.1.16. İkili diplom proqramlarının həyata keçirilməsi.

2.1.17 Birgə fəaliyyət üçün beynəlxalq laboratoriya və mərkəzlərin yaradılması və fəaliyyət göstərməsi imkanları (müxtəlif istiqamətlər üzrə).

2.1.5. Створення необхідних умов для поглиблення теоретичних і практичних знань.

2.1.6. Обмін досвідом з організації та методики проведення зайнять з використанням сучасних освітніх технологій.

2.1.7. Реалізація на основі взаємного інтересу спільних наукових і освітніх програм, проєктів. Розробка та реалізація спільних культурних програм і проєктів (соціальна практика волонтерства, менторська діяльність, олімпіади, інтелектуальні ігри тощо).

2.1.8. Проведення спільних наукових досліджень та інших робіт з актуальних напрямів діяльності Сторін, у тому числі спрямованих на вирішення найважливіших проблем в системі освіти.

2.1.9. Залучення студентів, магістрів і аспірантів до науково-дослідної роботи з пріоритетних напрямків фундаментальних і прикладних наукових досліджень. Проведення докторантами / аспірантами Сторін спільних досліджень за тематикою дисертаційних робіт.

2.1.10. Розробка і реалізація програм підвищення кваліфікації викладачів та співробітників.

2.1.11. Організація проведення навчальних курсів «гостьовими» професорами з обох сторін за домовленістю.

2.1.12. Забезпечення умов для функціонування освітнього комплексу безперервної освіти.

2.1.13. Реалізація спільних проєктів, підготовка курсів, семінарів з перепідготовки і підвищенню кваліфікації спеціалістів.

2.1.14. Організація та проведення спільних науково-практичних і науково-методичних симпозиумів, конференцій науково-освітньої та інноваційної спрямованості, круглих столів (в т. ч. молодіжних, студентських) та інших заходів.

2.1.15. Реалізація академічної мобільності тих, хто навчається, зокрема, можливість проходження студентами Сторін модульного (семестрового) навчання з освітніх напрямків структурних підрозділів на паритетних умовах.

2.1.16. Реалізація програм подвійних дипломів.

2.1.17. Можливість створення міжнародних лабораторій і центрів для спільної діяльності (за різними напрямами).

**3. Tərəflərin öhdəlikləri**

3.1.Tərəflər aşağıdakıları öhdələrinə götürürlər:
3.1.1. Hazırkı Müqavilənin yerinə yetirilməsi məqsədilə bağlanmış ayrı-ayrı müqavilələrlə nəzərdə tutulan qaydada, ölçüdə və üsullarla birgə layihələrin və proqramların həyata keçirilməsinə dəstək vermək; birgə layihələrin həyata keçirilməsi üçün zəruri olan hüquqi və faktiki hərəkətləri vaxtlı-vaxtında və tam həcmdə yerinə yetirmək.
3.1.2.Qanunvericiliyə riayət olunmaqla sərəncamlarında olan informasiya resurslarını mübadilə etmək.
3.1.3.Sistematik olaraq əməkdaşlıq istiqamətlərinin həyata keçirilməsi ilə bağlı məsələləri müzakirə etmək.
3.1.4. Hazırkı Müqavilənin həyata keçirilməsi prosesində meydana çıxan problemləri gözdən keçirmək, bunlar üzrə razılaşdırılmış qərarlar qəbul etmək.

**4. Yekun müddəalar**
4.1.Tərəflər arasında əməkdaşlığın konkret formaları Tərəflərin bütün fəaliyyət aspekti üzrə arzularını nəzərə alan ayrı-ayrı müqavilə və ya razılaşmalarla şərtləşdirilir.

4.2. Hazırkı Müqavilə Tərəflərin qarşılıqlı maliyyə şərtləri olmadan bağlanır. Maliyyə şərtləri Tərəflər arasında əlavə olaraq bağlanan müqavilələrdə şərtləşdirilir.

4.3. Hazırkı Müqavilənin həyata keçirilməsi çərçivəsində Tərəflər intellektual fəaliyyətin nəticələri üzərində hüquqların müdafiəsini təmin edirlər.
4.4. Hazırkı Müqavilənin şərtlərinə hər hansı bir əlavə və dəyişiklik əlavə razılaşmalarla tərtib olunur və hər iki Tərəfin onları imzaladığı andan qüvvəyə minir.

4.5. Hazırkı Müqavilə imzalandığı andan qüvvəyə minir və beş il ərzində etibarlıdır.
4.6. Hazırkı Müqavilə eyni hüquqi qüvvəyə malik iki nüsxədə tərtib olunmuşdur və hər bir Tərəfdə bir nüsxə olmaqla saxlanılır.

**3. Зобов'язання сторін**

3.1 Сторони зобов'язуються:
3.1.1. Сприяти реалізації спільних проєктів і програм в порядку, розмірі та способами, що передбачені в окремих угодах, які укладено в межах виконання цієї Угоди; своєчасно та у повному обсязі виконувати юридичні та фактичні дії, які необхідні для реалізації спільних проєктів.

3.1.2. Здійснювати обмін у відповідності із законодавством та наявними у розпорядженні інформаційними ресурсами.
3.1.3. Систематично обговорювати питання, що пов'язані з реалізацією напрямів співробітництва.
3.1.4. Розглядати проблеми, що виникають в ході реалізації цієї Угоди, приймати з них погоджені рішення.

**4. Заключні положення**
4.1. Конкретні форми співробітництва між Сторонами обумовлюються угодами або домовленостями, що враховують бажання Сторін за всіма аспектами діяльності.

4.2. Ця Угода укладена без взаємних фінансових умов Сторін. Фінансові умови обумовлюються в угодах, які додатково укладаються між Сторонами.

4.3. В межах реалізації цієї Угоди Сторони забезпечують захист прав на результати інтелектуальної діяльності

4.4. Будь-які зміни і доповнення умов цієї Угоди оформляються додатковими условий настоящего Договора оформляются дополнительными і вступають в силу з моменту їхнього підписання обома Сторонами.
4.5. Ця Угода набуває чинності з моменту її підписання і діє протягом п'яти років.
4.6. Ця Угода укладена в двох екземплярах однакової юридичної сили і зберігається по одному екземпляру у кожної із Сторін

**5. Tərəflərin ünvan və rekvizitləri**

"Dniprovska Politexnik" Milli Texniki Universiteti
49005, Ukrayna, Dnepr,
Dmitri Yavornitsky prospekti, 19

Azərbaycan Dövlət İqtisad Universiteti
AZ 1001, Bakı, İstiqlaliyyət küç. 6, Azərbaycan

**Azərbaycan Dövlət İqtisad Universiteti adından**

**Rektor**

______________________

**Professor Ədalət Cəlal o. Muradov**

**Tarix:**______________________

25.10.2021.

**5. Адреса та реквізити Сторін**

Національний технічний університет
«Дніпровська політехніка»
49005, Україна, м. Дніпро,
проспект Дмитра Яворницького, 19

Азербайджанський державний економічний університет:
AZ1001, Азербайджан, Баку,
вул. Істіглаліййат, 6

**Від імені** Національного технічного університету «Дніпровська політехніка»

**Ректор**

______________________

**Професор Азюковський Олександр Олександрович**

**Дата:**______________________